# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə “işçilərə” sözü “sığortaolunanlara” sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə” üzrə:

2.1. adında “işçilərə” sözü “sığortaolunanlara” sözü ilə əvəz edilsin;

2.2. mətn üzrə ismin müvafiq hallarında “işçi” sözü ismin müvafiq hallarında “sığortaolunan” sözü ilə əvəz edilsin;

2.3. mətn üzrə (4-cü hissənin birinci abzasının ikinci cümləsi və ikinci abzası, 43-cü hissənin birinci abzası, 120-ci hissənin birinci cümləsi istisna olmaqla) ismin müvafiq hallarında “işçilər” sözü ismin müvafiq hallarında “sığortaolunanlar” sözü ilə əvəz edilsin;

2.4. mətn üzrə ismin müvafiq hallarında “yerli qurum” və “yerli qurumlar” sözləri (121-ci hissədə ikinci hal istisna olmaqla) ismin müvafiq hallarında “struktur bölmə” sözləri ilə əvəz edilsin;

2.5. 3-cü hissənin beşinci abzasında “işəgötürənlərdə” sözü “sığortaedənlərdə” sözü ilə əvəz edilsin;

2.6. 4-cü hissə üzrə:

2.6.1. birinci abzasın birinci cümləsində “vətəndaş” sözü “şəxs” sözü ilə, “işə götürəndən” sözləri “sığortaedəndən” sözü ilə əvəz edilsin;

2.6.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularına və işçilərinə, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinə və “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərə və şəxslərə sosial sığorta ödəmələrinin hesablanması, təyin edilməsi və verilməsi həmin şəxslərin xidmət etdiyi (və ya işlədiyi) dövlət orqanları tərəfindən bu Əsasnamə ilə müəyyən edilmiş qaydada həyata keçirilir.”;

2.7. 9-cu hissənin üçüncü abzasının dördüncü cümləsində, 22-ci hissənin birinci və ikinci abzaslarında, 101-ci hissənin birinci cümləsində ismin müvafiq hallarında “İşçi” sözü ismin müvafiq hallarında “Sığortaolunan” sözü ilə əvəz edilsin;

2.8. 16-cı hissənin birinci abzasından “məzuniyyət zamanı” sözləri çıxarılsın və həmin hissədə “qoymaq” sözü “yerləşdirmək” sözü ilə əvəz edilsin;

2.9. 25-ci hissə üzrə:

2.9.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

“ - sığortaolunanın 6 aydan az sosial sığorta stajı olduqda;”;

2.9.2. yeddinci abzasın birinci cümləsinə “baş verdikdə,” sözlərindən sonra “bu Əsasnaməyə 6 nömrəli əlavəyə uyğun olaraq tərtib edilmiş arayış təqdim edildiyi hal istisna olmaqla” sözləri əlavə edilsin;

2.10. 28-ci hissənin üçüncü (hər iki halda), dördüncü abzaslarında və on dördüncü abzasının üçüncü cümləsində “12 tam təqvim” sözləri “12 təqvim” sözləri ilə əvəz edilsin;

2.11. 41-ci hissə aşağıdakı redaksiyada verilsin:

"41. Sığortaolunan əsas iş yerindən əlavə başqa iş yerində (yerlərində) muzdlu işə aid olan fəaliyyətdən qazanc əldə edərsə, bu zaman müavinət əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 təqvim günü üçün sığortaedənlər tərəfindən hər bir iş yerindəki qazancı əsasında ayrı-ayrılıqda hesablanır və ödənilir. Qalan günlər üçün isə müavinət sığortaolunanın həm əsas, həm əlavə iş yeri (yerləri) üzrə ümumi qazancı əsasında hesablanır və məcburi dövlət sosial sığorta haqları hesabına ödənilir.

Əsas iş yerindən əlavə muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunana müavinət sığortaedənin vəsaiti hesabına ilk 14 təqvim günü üçün yalnız əsas iş yerindən əldə etdiyi qazancı, qalan günlər üçün isə müavinət bu Əsasnamənin 28-ci hissəsi nəzərə alınmaqla sığortaolunanın bütün qazancı əsasında hesablanır və məcburi dövlət sosial sığorta haqları hesabına ödənilir.";

2.12. 43-cü hissənin birinci abzasında "peşə və ixtisas işçilərinə" sözləri "sığortaolunanlara" sözü ilə əvəz edilsin;

2.13. 62-ci hissənin on səkkizinci abzasında "uşaqlara" sözü "sığortaolunanlara" sözü ilə əvəz edilsin;

2.14. 70-ci hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"İki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra 56 günlük sosial məzuniyyət hüququndan istifadə etdikdə, onlara bu bölmə ilə müəyyən edilmiş qaydada müavinət verilir.";

2.15. 73-cü hissənin birinci abzasına "birdəfəlik" sözündən əvvəl "uşağın anadan olmasına görə" sözləri, ikinci abzasına "müavinət" sözündən əvvəl "uşağın anadan olmasına görə birdəfəlik" sözləri əlavə edilsin;

2.16. 74-cü hissənin birinci cümləsinə "müavinət" sözündən əvvəl "birdəfəlik" sözü əlavə edilsin;

2.17. 75-ci hissənin birinci abzasına "birdəfəlik" sözündən əvvəl "uşağın anadan olmasına görə" sözləri əlavə edilsin və ikinci abzasın birinci cümləsində "Uşaq doğumuna" sözləri "Uşağın anadan olmasına" sözləri ilə əvəz edilsin;

2.18. 76-cı hissədə "uşaq doğulmasına" sözləri "uşağın anadan olmasına" sözləri ilə əvəz edilsin;

2.19. 77-ci hissəyə "müavinət" sözündən əvvəl "uşağın anadan olmasına görə birdəfəlik" sözləri əlavə edilsin;

2.20. 96-cı hissədə "Müavinət" sözü "Bu Əsasnamədə nəzərdə tutulan müavinətlər" sözləri ilə əvəz edilsin, "təyin edilir" sözlərindən

əvvəl “bu hissənin ikinci cümləsi nəzərə alınmaqla” sözləri və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 günü üçün həm əsas, həm də əlavə iş yeri (yerləri) üzrə, 14 gündən sonrakı günlər üçün isə əsas iş yeri üzrə sığortaedənin müvafiq komissiyası tərəfindən təyin edilir.”;

2.21. 99-cu hissədən “və ya “DOST” mərkəzləri” sözləri çıxarılsın;

2.22. 101-ci hissənin birinci cümləsinə “xəstəlik vərəqələrini” sözlərindən sonra “əsas iş yeri üzrə” sözləri, “müəssisənin müdiriyyətinə” sözlərindən sonra “, əlavə iş yeri (yerləri) olduğu halda isə əsas iş yeri tərəfindən xəstəlik vərəqələrinin təsdiqlənmiş surətini əlavə iş yerinin (yerlərinin) müdiriyyətinə” sözləri əlavə edilsin;

2.23. 112-ci hissənin birinci abzasında və 114-1-ci hissənin beşinci abzasında “doğulmasına” sözü “anadan olmasına” sözləri ilə əvəz edilsin;

2.24. 114-1-ci hissənin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müraciət həm əsas, həm əlavə iş yeri (yerləri) olan, habelə əsas iş yerindən əlavə muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə əsas iş yeri olan sığortaedən tərəfindən edilir.”;

2.25. 114-2-ci hissə üzrə:

2.25.1. dördüncü abzasda “uşağın doğulmasına” sözləri “2021-ci il yanvarın 1-dək anadan olmuş uşaqlara münasibətdə uşağın anadan olmasına” sözləri ilə əvəz edilsin;

2.25.2. yeddinci abzasın birinci cümləsində “keçirməlidirlər” sözü “keçirməlidir” sözü ilə əvəz edilsin;

2.25.3. səkkizinci abzasa “haqq-hesab” sözündən sonra “cədvəli” sözü əlavə edilsin;

2.25.4. aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

“Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasına əsasən rüb üzrə hesabat təqdim edildiyi tarixdən növbəti rüb üzrə hesabat təqdim ediləcəyi tarixədək əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuma görə müavinətlərin hesablanmasında nəzərə alınan aylar üzrə qazanc ilə bağlı bu Əsasnamənin 6 nömrəli əlavəsinə uyğun olaraq tərtib edilmiş arayış müavinət sənədlərinə əlavə edilməlidir. Həmin arayışda təqdim olunan məlumatlarla həmin rüb üzrə sonradan təqdim olunan hesabat məlumatları arasında fərq aşkar olunduqda, müavinət üzrə artıq ödənilmiş məbləğ sığortaedən

tərəfindən dövlət sosial müdafiə fondunun hesabına geri qaytarılır, əskik ödənilmə halında isə əskik ödənilmiş məbləğ Fondun struktur bölməsi tərəfindən bu Əsasnamə ilə müəyyən edilmiş qaydada sığortaolunana ödənilir.";

2.26. 117-ci hissənin altıncı abzasında "uşaq doğumu üçün" sözləri "uşağın anadan olmasına görə" sözləri ilə əvəz edilsin;

2.27. 120-ci hissənin birinci cümləsində "məsul işçilərinin" sözləri "səlahiyyətli vəzifəli şəxslərinin" sözləri ilə əvəz edilsin;

2.28. 121-ci hissədə "Fondun yerli qurumlarına" sözləri "dövlət sosial müdafiə fondunun hesabına" sözləri ilə əvəz edilsin;

2.29. 123-cü hissənin birinci abzasında "uşaq doğumuna" sözləri "uşağın anadan olmasına görə" sözləri ilə əvəz edilsin;

2.30. 133-cü hissədə "sığortaolunanların" sözü "Sığortaolunanların və əmək pensiyaçılarının" sözləri ilə əvəz edilsin və həmin hissəyə "hesabına" sözündən sonra "tam və ya qismən" sözləri əlavə edilsin;

2.31. 134-cü hissə ləğv edilsin;

2.32. 135-ci hissənin ikinci cümləsində "Fondun xəzinə hesabına" sözləri "dövlət sosial müdafiə fondunun hesabına" sözləri ilə əvəz edilsin;

2.33. Əsasnamənin 1-5 nömrəli əlavələrində "işçilərə" sözü "sığortaolunanlara" sözü ilə, "yerli qurumlarına" sözləri "struktur bölməsinə" sözləri ilə, "ƏƏSMN-də uçot nömrəsi" sözləri "sığortaedənin uçot nömrəsi (SUN)" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 mart 2024-cü il

№ 158

**Forma A-6**

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”yə**
**6 nömrəli əlavə**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölməsinə və ya “DOST” mərkəzlərinə**

**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən məcburi dövlət sosial sığortası üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə sığortaedən tərəfindən hesabat təqdim edilməyən dövrdə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuma görə müavinətlərin verilməsi üçün hesabat təqdim edilməyən dövrün ayları üzrə sığortaolunanların məcburi dövlət sosial sığorta haqqı hesablanan qazancı barədə sığortaedənin arayışı**

| Dövr | | Müavinət alan sığortaolunanın (sığortaolunanların) | | | |
|---|---|---|---|---|---|
| il | ay | soyadı, adı və atasının adı | sosial sığorta nömrəsi (SSN) | fərdi identifikasiya nömrəsi (FİN-i) | məcburi dövlət sosial sığorta haqqı hesablanan qazancı (manatla) |
| | | | | | |
| | | | | | |
| | | | | | |

**Qeyd.** Bu arayışla təqdim olunan məlumatların dəqiqliyinə görə bu arayışı təqdim edən sığortaedən (işəgötürən müəssisə və ya təşkilat) qanunda nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

**Sığortaedənin adı, sığortaedənin uçot nömrəsi (SUN) və VÖEN-i** ______________________ _____________ _____________

**M.Y.**

**Sığortaedənin rəhbəri** _____________________________ _______________________
(soyadı, adı, atasının adı) (imzası)

**Baş (böyük) mühasib** _____________________________ _______________________
(soyadı, adı, atasının adı) (imzası)